# Sözün işığında

## "Kədərinə vəfalı"nın sevinc payı

Mingəçevirdə yazıb yaradan qələm sahiblərindən söz düşəndə gənc yazıçı-publisist Samir Zəngəzurlunun adı ilk sıralarda gəlir. Onun indiyə kimi nəşr etdirdiyi səkkiz kitabın bir qismində ədəbi publisistik yazılar üstünlük təşkil etsə də, "Sevgi qəbri", "Yağış məni ağlayır" və "Kədərinə vəfalı" adlı kitablarda sırf nəsrə aid nümunələr yer almışdır. Bu yaxınlarda işıq üzü görən və indiyə kimi xeyli sayda oxucunun mütaliə etdiyi "Kədərinə vəfalı" adlı kitabı sübut edir ki, Samir Zəngəzurlu bir yazıçı kimi uğurlarını sıralamaqdadır. Mingəçevir Dövlət Universitetinin iclas zalında sözügedən ali təhsil ocağının Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsi ilə birgə sərgilədiyi təqdimat mərasimində də yuxarıda deyilənlər təsdiqini tapdı.




***... Düşəndə hardasa hərdən çətinə,***
***Sınığndıq Tanrının mərhəmətinə.***
***Söykənib bir elin məhəbbətinə,***

Çevirdik kəlməyə, sözə işığı - misraları ilə tədbirin sözlü-nəğməli olacağının anonsunu verən mərasimin aparıcısı, AYB-nin Mingəçevir bölməsinin rəhbəri İsmayıl İmanzadə ilk olaraq Universitetin rektoru, tanınmış alim, şəhər Ağsaqqallar Şurasının sədri Akif Hacıyevə söz verdi. Akif müəllim Samir Zəngəzurlunun həm söz adamı, həm bölgənin mədəni-kütləvi tədbirlərinin zona müxbiri olduğu AzTv-də yayımlanmasının təşkilatçısı, həm də ümumilikdə səmimi-savadlı bir ziyalı kimi dəyərləndirib, ona sonrakı fəaliyyətində də uğurlar arzuladı. Mingəçevir Turizm Kollecinin direktoru, şəhər Ziyalılar Cəmiyyətinin sədri, iqtisad elmləri doktoru Əyyub Əyyubov həm "Kədərinə vəfalı"nı, həm də onun müəllifini hərarətli kəlmələrlə yüksək qiymətləndirdi.

Ayrı-ayrı məqamlarda etdikləri çıxışlarda "Kədərinə vəfalı"dakı obrazların insanlara, illah da gənclərə təqdim etdiyi yurd sevgisinin, bədnam qonşularımızın riyakarlığını, zaman-zaman soydaşlarımıza yönəlik vəhşiliklərini diqqət mərkəzinə çəkməklə, kitabı dəyərləndirən filologiya elmləri namizədi Mayıl İsmayılov və Mingəçevir Bələdiyyəsinin üzvü, komissiya sədri Zahid Qasımlı da müəllifə ünvanladıqları xoş kəlmələrlə yadda qaldılar.

"Kədərinə vəfalı"nın ilk oxucuları, universitetin müəllimi İlhamə İsmayılova və "Azərbaycan işıqları" qəzetinin bölgə redaktoru Yusif Ələkbərov redaktə etdikləri kitabın oxuculara nəcib hisslər aşılamaq, tarixi düşmənlərimizin törətdikləri vəhşilikləri yaddan çıxarmamaq baxımından böyük önəm daşıdığını qeyd etdilər.

Universitetin tələbələrindən İlahə, Gülşən, Qönçə və Nahidə kitabda yer alan bayatıları əzbərdən söyləməklə Samir Zəngəzurlunun şifahi xalq ədəbiyyatına dərindən bələd olduğunu da nümayiş etdirdilər.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist Zümrüd Rəhimova kitabda yer alan əsərlərdəki lirik lövhələrdən, müəllifin ana dilimizin incəliklərindən yetərincə bəhrələnmək bacarığından söz açdı.

Yaxın keçmişdə Samir Zəngəzurlu ilə yerli mətbuatda birgə çalışdığını, məhz buna görə də yaxın dost kimi onun istedadının və səmimiyyətinin bütün çalarlarına bələd olduğunu vurğulayan "Mingəçevir" qzeetinin baş redaktoru, yazıçı-publisist Mirsədi Daşdəmirov çıxışının sonunda həmkarının bundan sonra da oxuculara ən yaxşı söz töhfələri bəxş edəcəyini əminlik hissiylə söylədi.

Tədbirin ortalarında mikrafon qarşısına keçən müəllifin məktəbli övadı Sunay Samirqızı atası ilə fəxr etdiyini söyləyib, bir gül dəstəsi ilə "Kədərinə vəfalı"ya əlvan çalarlar qatdı.

Mingəçevir Dövlət Univesitetinin tələbələrindən Fatma, Nərminə, Lalə, Səkinə və Gülşən kitabdakı "Cəza" hekayəsinin ayrı-ayrı hissələrini Azərbaycan, rus, fransız, alman və ingilis dillərində tədbir iştirakçılarına çatdırdılar.

Mingəçevirdə sayılıb-seçilən ziyalılar kimi yetərincə tanınan Dilşad İlyasova və Ağa Ağayevin kitab müəllifinə ünvanladıqları hərarətli kəlmələr də, sözləri Samir Zəngəzurluya məxsus olan, gənc bəstəkar Ülviyyə Kərimovanın bəstələdiyi mahnını ifa edən tələbə müğənni Əli Hüseynovun ifası da alqışlarla qarşılandı.

Tədbirin sonunda Samir Zəngəzulu təqdimat mərasiminin təşkilatçılarına, "Kədərinə vəfalı"nı dəyərləndirən insanlara və tədbir iştirakçılarına minnətdarlığını bildirdi.

**Mətanət MƏMMƏDOVA**
Azərbaycan Jurnalistlər
Birliyinin üzvü, "Mingəçevir"
qəzetinin əməkdaşı